**Təsdiq edirəm:**
Biznes mühiti və beynəlxalq
reytinqlər üzrə Komissiyanın sədri,
Azərbaycan Respublikası Baş nazirinin
birinci müavini Yaqub Eyyubov

________________

23.02.2024-cü il

**Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın "Əmək bazarı" işçi qrupunun 2024-cü il üzrə Fəaliyyət Planı**

| Sıra №-si | İndikatorlar | Mövcud vəziyyət (son hesabat üzrə) | Metodologiya | Görüləcək tədbirlər | Son icra müddəti | İcra orqanları | Məsul şəxslər |
|---|---|---|---|---|---|---|---|
| ***İqtisadi Azadlıq İndeksi*** | | | | | | | |
| **1.** | **Əməyin azadlığı** | 101-ci yer, 55,8 bal | Əməyin azadlığı indikatoru ölkənin əmək bazarını tənzimləyən normativ-hüquqi bazanın müxtəlif aspektlər üzrə kəmiyyət indikatorudur. Bu aspektlərə minimum əməkhaqqı, birləşmək hüququ, işçilərin ixtisar edilməsini tənzimləyən qanunlar, işdən çıxarma tələbləri, işə qəbul və iş saatları ilə bağlı normativ məhdudiyyətlər, eləcə də əmək bazarında məşğulluq imkanlarının göstəricisi kimi işçi qüvvəsinin əmək bazarındakı payı və əmək məhsuldarlığı aiddir. Əməyin azadlığı indikatoru bərabər çəkiyə malik 9 kəmiyyət alt-faktoru əsasında hesablanır:<br>1. Minimum əməkhaqqı;<br>2. Birləşmək hüququ;<br>3. İllik ödənişli məzuniyyət; | 1. Aylıq minimum əməkhaqqının saatlıq minimum əməkhaqqı ilə əvəz edilməsi ilə bağlı təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | 01.10.2024 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Nərmin Mirzəyeva |
| | | | | 2. Minimum əməkhaqqının artırılması ilə bağlı təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | 01.11.2024 | | Fuad Heydərov |
| | | | | 3. İşçilərin ixtisarı zamanı xəbərdarlıqların göndərilməsinin rəqəmsallaşdırılması imkanlarının təhlil olunması və müvafiq təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi | 01.10.2024 | | Nərmin Mirzəyeva |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | 4. İşçilərin ixtisarı zamanı xəbərdarlıq müddəti;<br>5. İşçilərin ixtisarı zamanı işdən çıxma müavinəti;<br>6. Əmək məhsuldarlığı;<br>7. İşçi qüvvəsinin əmək bazarındakı payı;<br>8. İş vaxtından artıq işləməyə qoyulan məhdudiyyətlər;<br>9. İşçilərin ixtisarına qanunla müəyyən edilmiş hallarda icazə verilməsi. | 4. Məzuniyyət hüququndan istifadə ilə bağlı normaların beynəlxalq normalara uyğunlaşdırılması ilə bağlı təkliflərin (iki təqvim həftəsi müddətində məzuniyyət günlərindən istifadə, məzuniyyət günlərinin kompensasiya ilə əvəz edilməsi ilə bağlı normaların təkmilləşdirilməsi və s.) hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | 01.07.2024 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Fuad Heydərov |
| | | | | 5. Minimum əməkhaqqı anlayışında sosial vəziyyətin nəzərə alınması ilə bağlı təkmilləşdirilmənin aparılması | 01.10.2024 | | |
| ***Qlobal İnnovasiya İndeksi*** | | | | | | | |
| **2.** | **1.2.3 İşdən çıxarılma xərcləri** | 51-ci yer, 13,7 bal | Bu göstərici işçilərin sayı və ya ştatları ixtisar olunduqda xəbərdarlıq müddəti ərzində əmək funksiyasının icrası müqabilində edilən ödənişlə işdənçıxarma müavinətinin cəmini əks etdirir (həftəlik əməkhaqqı ilə ifadə edilir). | Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 70-ci maddəsinin b bəndinə əsasən işəgötürən tərəfindən əmək müqaviləsinə xitam verilərkən “Əmək və məşğulluq” altsistemi (ƏMAS) üzərindən Əmək Məcəlləsinin 77-ci maddəsinin tələblərinə uyğun olaraq müavinətin ödənilməsi üçün əmrlərin elektron formada hazırlanması ilə bağlı funksionallığın yaradılması | 01.08.2024 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Nərmin Mirzəyeva |
| **3.** | **5.1.1 Elmtutumlu müəssisələrdə məşğulluq** | 62-ci yer, 23,2 bal | Bu göstərici Məşğulluq Təsnifatına müvafiq olaraq aşağıda qeyd olunan 1-3-cü kateqoriyalarda çalışan işçi qüvvəsinin ümumi sayının bütün məşğul əhalinin sayına nisbəti ilə ölçülür (%-lə). Məşğulluq Təsnifatına daxil edilən kateqoriyalar aşağıdakılardır:<br>1. İdarəedicilər;<br>2. Peşəkar mütəxəssislər;<br>3. Mütəxəssislər və köməkçi heyət. | “Məzunların məşğulluq reytinqi” platformasının təkmilləşdirilməsi | | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Dövlət Statistika Komitəsi | Cəmaləddin Quliyev |
| **4.** | **5.1.2 İşçilərinə treninqlər təklif edən şirkətlər** | 48-ci yer, 33,9 bal | Dünya Bankı tərəfindən hər bir ölkədə aparılan Müəssisə Sorğusunda (Enterprise Surveys) iştirak edən şirkətlərin ümumi sayında daimi, tam ştatlı işçiləri üçün formal təlim proqramları təklif edən şirkətlərin xüsusi çəkisi | Kiçik və Orta Biznesin İnkişafı Mərkəzləri tərəfindən şirkət əməkdaşlarına ehtiyaclara uyğun təlimlərin keçirilməsi | İl ərzində | İqtisadiyyat Nazirliyi (Kiçik və Orta Biznesin İnkişafı Agentliyi) | Elnur Əliyev |

<table>
<tr><td rowspan="2">5.</td><td rowspan="2">5.1.3 Biznes müəssisələri-nin tədqiqatlara yönəltdiyi vəsaitlər (ÜDM-də payı)</td><td rowspan="2">88-ci yer, 0 bal</td><td rowspan="2">Bu göstərici biznes müəssisələri tərəfindən aparılan tədqiqat və təkmilləşdirmə işləri üzrə ümumi xərclərin ÜDM-də xüsusi çəkisini əks etdirir.</td><td>1. Müəssisələrin tədqiqat sahələrinə investisiya qoyuluşunun stimullaşdırılması üçün məqsədyönlü tədbirlərin həyata keçirilməsi</td><td rowspan="2">İl ərzində</td><td>İqtisadiyyat Nazirliyi (Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi)</td><td>Nigar Vahabzadə</td></tr>
<tr><td>2. Elm və ali təhsil müəssisələrində aparılan elmi tədqiqatlara biznes müəssisələrinin cəlb olunması, bu sahədə hüquqi və fiziki şəxslərin fəaliyyətinin dəstəklənməsi</td><td>Elm və Təhsil Nazirliyi, İqtisadiyyat Nazirliyi</td><td>Ceyhun Kərəmov</td></tr>
<tr><td rowspan="5">6.</td><td rowspan="5">5.1.5 Elmi dərəcəsi olan işləyən qadınlar</td><td rowspan="5">55-ci yer, 13,5 bal</td><td rowspan="5">Bu göstərici yüksək akademik dərəcəsi olan işləyən qadınların ümumi məşğul əhalinin tərkibində olan payını göstərir (%-lə). Burada məşğul əhali dedikdə, əmək qabiliyyətli yaşda olan və aşağıdakı kateqoriyalardan birinə aid olan bütün əhali başa düşülür:<br>a) Əməkhaqqı müqabilində çalışanlar;<br>b) Özünüməşğul şəxslər.</td><td>1. Elmi fəaliyyətlə məşğul olan şəxslərin əməkhaqqı sisteminin təkmilləşdirilməsi imkanlarının araşdırılması və nəticələri üzrə müvafiq təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi</td><td rowspan="3">01.09.2024</td><td>Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi,<br>Elm və Təhsil Nazirliyi,<br>Dövlət Statistika Komitəsi</td><td>Rəşad Dayıyev</td></tr>
<tr><td>2. Hər il əmək bazarına daxil ola biləcək elmi dərəcəsi olan qadınların sayının araşdırılması və nəticələri üzrə müvafiq təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi</td><td rowspan="4">Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi,<br>Elm və Təhsil Nazirliyi</td><td rowspan="4">Cəmaləddin Quliyev</td></tr>
<tr><td>3. Elmi dərəcəsi olan işləyən qadınların əməkhaqlarının ümumi orta əməkhaqqına nisbəti və artım dinamikasının araşdırılması, nəticələri üzrə müvafiq təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi</td></tr>
<tr><td>4. Qadın işçilər arasında elmi fəaliyyətin təşviqi məqsədilə maarifləndirmə işlərinin həyata keçirilməsi</td><td>İl ərzində</td></tr>
<tr><td>5. Elmi dərəcəsi olan işləyən qadınların maaşlarına artım və ya əlavə məzuniyyət gününün verilməsi imkanlarının beynəlxalq təcrübədə araşdırılması və müvafiq təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi</td><td>01.09.2024</td></tr>
</table>

| ***Leqatum Rifah İndeksi*** | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| **7.** | **6.4 Əmək bazarının çevikliyi** | 4-cü yer, 73,9 bal | Bu indikator aşağıdakı komponentlərdən təşkil olunur:<br>- İşçi-işəgötürən münasibətlərində əməkdaşlıq;<br>- İşə qəbul prosesində çeviklik;<br>- İşdən azad edilmə üzrə təzminat xərcləri;<br>- Əmək müqavilələrinin sabitliyi;<br>- Əmək haqqının müəyyənləşməsində çeviklik.<br>Bu indikator müvafiq hissə üzrə 10% təsir imkanına malik olmaqla həm işçi, həm də işəgötürən üçün iş yerinin dinamikliyini müəyyənləşdirir. | 1. İşçi və işəgötürənlərin hüquq və vəzifələri, o cümlədən əmək bazarının çevikliyi mövzusunda maarifləndirmə tədbirlərinin həyata keçirilməsi | İl ərzində | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Nərmin Mirzəyeva |
| | | | | 2. “Əmək və məşğulluq” altsistemi (ƏMAS) üzərindən işçi-işəgötürən kommunikasiya imkanlarının yaradılması | 01.09.2024 | | |
| | | | | 3. Elektron əmək müqavilələrinin tətbiqi ilə bağlı qanunvericiliyə dəyişiklik edilməsinə dair təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | | | Fuad Heydərov |
| | | | | 4. “Əmək və məşğulluq” altsisteminin (ƏMAS) imkanlarından istifadə etməklə işə qəbul prosesində kağız üzərində aparılan əməliyyatların elektron müstəviyə keçirilməsi | | | Nərmin Mirzəyeva |
| | | | | 5. İşə qəbul prosesində müddətlərin məhdudlaşdırılaraq çevikliyin artırılması imkanlarının araşdırılması və müvafiq təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi | | | Cəmaləddin Quliyev |
| | | | | 6. Əmək müqavilələrinin sabitliyi tendensiyasının və dinamikasının araşdırılması və müvafiq təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi | | | |
| **8.** | **8.5 İşçi qüvvəsinin tərtibatı** | 110-cu yer, 47,6 bal | Bu indikator aşağıdakı komponentlərdən təşkil olunur:<br>- İşçi qüvvəsinin xüsusi çəkisi (iqtisadi fəal əhalinin əmək qabiliyyətli yaşda olan əhaliyə nisbəti);<br>- İşçi qüvvəsində qadınların iştirak səviyyəsi;<br>- Muzdlu işçilər;<br>- İşsizlik;<br>- Gənclər arasında işsizlik.<br>Bu indikator müvafiq hissə üzrə 20% təsir imkanına malik olmaqla demoqrafiya və ümumilikdə işçi qüvvəsinin strukturunu (faizlə) müəyyənləşdirir. | 1. Gənclər arasında işsizlik dinamikasının təhlil edilməsi və nəticələri üzrə müvafiq təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi | 01.10.2024 | | |
| | | | | 2. Qadınların məşğulluq imkanlarına çıxışını məhdudlaşdıran amillərin araşdırılması və nəticələri üzrə müvafiq təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi | | | |
| | | | | 3. Gənclərin məşğulluq imkanlarına çıxışını məhdudlaşdıran amillərin araşdırılması və nəticələri üzrə müvafiq təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi | | | |

| ***Qadın, Biznes və Hüquq İndeksi (“Women, Business and the Law” hesabatı)*** | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| **9.** | **Əməyin ödənişi** | 0 bal | Bu göstərici aşağıdakı suallar əsasında müəyyən edilir:<br>1. Qanunvericiliklə bərabər dəyərə malik olan işlərə bərabər əməkhaqqı müəyyən edilirmi?;<br>2. Qadınların gecə iş rejimində işləmək hüquqları varmı?;<br>3. Qadınlar təhlükəli sayılan peşələrdə işləyə bilərlərmi?;<br>4. Qadınlar sənaye sektorunda işləyə bilərlərmi?. | 1. Gender bərabərliyinə nail olunması məqsədilə kişilərin üstünlük təşkil etdiyi müəssisələrə qadınların da cəlb edilməsinin təşviq olunması | İl ərzində | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi,<br>Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | Fuad Heydərov |
| | | | | 2. Əmək münasibətlərində ayrı-seçkiliyin və seksual-qısnamanın yolverilməzliyinin təmin edilməsi və bu sahədə əmək normalarının təkmilləşdirilməsi məqsədilə qanunvericiliyə dəyişiklik edilməsinə dair təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | 01.12.2024 | | |
| | | | | 3. Uşaqlı qadınların iş vaxtı müddətinin tənzimlənməsinə dair normaların təkmilləşdirilməsi ilə bağlı layihələrin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | 01.05.2024 | | |
| | | | | 4. Qadınlar üçün az təhlükəli sayıla biləcək peşələrin araşdırılması və bu sahədə mütərəqqi beynəlxalq təcrübə nəzərə alınmaqla müvafiq təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi | 01.12.2024 | | Cəmaləddin Quliyev |
| **10.** | **Valideynlik** | 80 bal | Bu göstərici aşağıdakı suallar əsasında müəyyən edilir:<br>1. Hamilə qadınlara ən azı 14 həftəlik ödənişli məzuniyyət verilirmi?;<br>2. Dövlət hamiləliyə görə müavinətləri tam ödəyirmi?;<br>3. Atalar üçün valideynlik məzuniyyəti mövcuddurmu?;<br>4. Ödənişli sosial məzuniyyət hüququ mövcuddurmu?;<br>5. Hamilə işçilərin əmək müqavilələrini ləğv etmək qadağandırmı?. | 1. Ödənişli atalıq məzuniyyəti ilə bağlı qanunvericiliyə dəyişiklik edilməsinə dair müvafiq təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | 01.05.2024 | | Fuad Heydərov |
| | | | | 2. Hamiləliyə və doğuma görə məzuniyyətin müddəti ilə bağlı normaların təkmilləşdirilməsinə dair müvafiq təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | | | |
| | | | | 3. Sosial məzuniyyətlərin effektivliyinin mütərəqqi beynəlxalq təcrübə nəzərə alınmaqla təhlil edilməsi və nəticələri barədə müvafiq arayışın hazırlanaraq Komissiyaya təqdim edilməsi | 01.12.2024 | | Cəmaləddin Quliyev |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | 4. Qadın hüquqları, qadınların iqtisadi fəallığının artırılması, gender əsaslı zorakılıq, selektiv abortların qarşısının alınması, gənc ailələrin psixoloji, hüquqi, iqtisadi sahədə məlumatlandırılması və s. istiqamətlərdə maarifləndirici tədbirlərin həyata keçirilməsi | İl ərzində | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | Sədaqət Qəhrəmanova |
| ***Qlobal İstedad Rəqabətliliyi İndeksi*** | | | | | | | |
| **11.** | **3.2.3 İşçilər üçün inkişaf imkanları** | 33-cü yer, 68,95 bal | Bu indikator Dünya İqtisadi Forumu tərəfindən həyata keçirilən sorğuda “Sizin ölkənizdə şirkətlər işçilərin təlim və inkişafına sərmayə qoyurlarmı?” sualına verilən cavablara əsasən formalaşır. | Təlim və inkişaf istiqamətində kvalifikasiya xərclərinin qarşılanmasının potensial imkanlarının araşdırılması və müvafiq təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi | 01.07.2024 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Cəmaləddin Quliyev |
| **12.** | **5.1.1. Orta təhsilli işçi qüvvəsi** | 8-ci yer, 81,29 bal | Bu göstərici ən yüksək təhsil səviyyəsi orta təhsil olan işçi qüvvəsinin (15 yaşdan yuxarı) ümumi işçi qüvvəsində xüsusi çəkisini müəyyən edir. | Əmək bazarında ən çox tələb olunan peşə və kvalifikasiya standartlarının sayının artırılması | İl ərzində | | Rəşad Dayıyev |
| **13.** | **6.1.1. Ali təhsilli işçi qüvvəsi** | 53-cü yer, 33,96 bal | Bu göstərici ali təhsilli işçi qüvvəsinin (15 yaşdan yuxarı) ümumi işçi qüvvəsində xüsusi çəkisini müəyyən edir . | Ali təhsil müəssisələrində ixtisasların və ixtisaslar üzrə buraxılış saylarının əmək bazarının gələcək inkişaf tendensiyaları nəzərə alınmaqla qiymətləndirilməsi və müvafiq təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi | 01.12.2024 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Elm və Təhsil Nazirliyi | Cəmaləddin Quliyev |
| ***Yerli və beynəlxalq qurumlarla əməkdaşlığın gücləndirilməsi*** | | | | | | | |
| **14.** | **Bütün aidiyyəti indikatorlar** | - | | 1. Beynəlxalq reytinqlər üzrə sorğularda iştirak edən şirkətlərlə (rezident və qeyri-rezident) müvafiq sahədə mütəmadi əməkdaşlığın təmin olunması | İl ərzində | Bütün aidiyyəti qurumlar | İşçi qrupun bütün üzvləri |
| | | | | 2. Hər bir indikatora dair məlumatların aidiyyəti mənbələrdə tələb olunan formada öz əksini tapması məqsədilə müvafiq tədbirlərin görülməsi | 01.07.2024 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, İqtisadiyyat Nazirliyi, Dövlət Statistika Komitəsi | Nicat Rəhmanlı, Nigar Vahabzadə, Faiz Abdulrəhmanov |